**“Dayanıqlı və yüksək səviyyədə təşkil olunmuş Milli Kodeks Sisteminin yaradılması üçün Azərbaycan Respublikasına dəstək” - Kodeks Etimad Fondu 2A layihəsi**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə əməkdaşlıq çərçivəsində 2021-ci ildən “Dayanıqlı və yüksək səviyyədə təşkil olunmuş Milli Kodeks Sisteminin yaradılması üçün Azərbaycan Respublikasına dəstək” layihəsini həyata keçirmişdir.

Layihənin məqsədi Kodeks Alimentarius Komissiyasının işində Azərbaycanın daha fəal və yaxından iştirakına, beynəlxalq qida standartlarının tətbiqi və ölkədə güclü və dayanıqlı Milli Kodeks Sisteminin qurulmasına yönəlmiş fəaliyyətlərin həyata keçirilməsi üçün dəstək verilməsi idir.

Layihə çərçivəsində aşağıdakı istiqamətlərdə mühüm tədbirlər görülmüşdür:

- Dayanıqlı və yüksək səviyyədə təşkil olunmuş Milli Kodeks Sisteminin yaradılması və bütün maraqlı tərəflərin prosesə cəlb olunması;
- Milli SPS norma və qaydalarının hazırlanması üçün texniki potensialın gücləndirilməsi;
- Kodeks işində iştirak edən mütəxəssislərin bilik və bacarıqlarının artırılması, beynəlxalq platformalarda səmərəli iştiraka şərait yaradılması.

Layihənin əhatə etdiyi dövr ərzində AQTA-ya Milli Kodeks sisteminin fəaliyyətinin daha səmərəli təşkili üçün müvafiq normativ bazanın yaradılması, milli qanunvericiliyin tərkib hissəsi olan sanitar və fitosanitar norma və qaydaların Kodeks standartlarına uyğun olaraq hazırlanması və təkmilləşdirilməsi, eləcə də Kodeks Komissiyasının fəaliyyətinə cəlb olunan bütün iştirakçılar arasında kommunikasiyanın gücləndirilməsi sahələrində dəstək göstərilmişdir.